Kim "Ləə iləhə illallah" deyər və Allahdan başqa ibadət edilənləri inkar edərsə, malı, qanı toxunulmaz olar, hesabı isə Allaha aiddir

Tariq bin Əşyəm Əl-Əşcaidən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Kim "Ləə iləhə illallah" deyər və Allahdan başqa ibadət edilənləri inkar edərsə, malı, qanı toxunulmaz olar, hesabı isə Allaha aiddir."

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, kim diliylə şəhadət edərək " Ləə iləhə illah" - yəni Allahdan başqa haqq məbud olmadığını deyərsə, Allahdan başqa ibadət edilən hər şeyi inkar edərsə və İslamdan başqa digər dinləri tərk edərsə, onun malı, qanı müsəlmanlara haram olar və bizə yalnız əməlinin zahirinə görə hökm vermək qalar. Buna görə də İslam əhkamlarına əsasən kim, qanını və malını halal edəcək bir günah və cinayət etməyincə, malı alınmaz və qanı da axıdılmaz. Allah Qiyamət günü onun hesabını çəkəcək, əgər müsəlman kimi dediklərində doğru, səmimi idisə onu mukafatlandıracaq, münafiq idisə cəzalandıracaq.

http://sunnah.global/hadeeth/az/show/6765